Tərəflər Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizinin açılmasının iki ölkə arasında, həmçinin, bütövlükdə regionda nəqliyyat-kommunikasiya əlaqələrinin möhkəmlənməsinə əhəmiyyətli töhvə verəcəyini qeyd etdilər və Zəngəzur dəhlizinin strateji əhəmiyyətini bildirdilər.

Tərəflər iki ölkənin ərazilərindən keçən Transxəzər Şərq-Qərb Orta Dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıb və bununla bağlı 27 iyun 2022-ci il tarixində Azərbaycan Respublikası, Türkiyə Respublikası və Qazaxıstan Respublikasının xarici işlər və nəqliyyat nazirləri arasında imzalanmış "Bakı Bəyannaməsi" və 02 avqust 2022-ci il tarixində Azərbaycan Respublikası, Türkiyə Respublikası və Özbəkistan Respublikasının xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirləri arasında imzalanmış "Daşkənd Bəyannaməsi"nin əhəmiyyətiini qeyd etdilər.

Tərəflər Azərbaycanda yenicə istifadəyə verilən Zəngilan Hava Limanının ölkələri arasında, eləcə də regional səviyyədə nəqliyyat əlaqələrinin möhkəmlənməsinə verdiyi töhfəsinin əhəmiyyətini vurğuladılar.

Tərəflər Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında vizaların ləğvi haqqında 25 fevral 2020-ci il tarixində imzalanmış Sazişə dəyişikliklərin edilməsi üçün 2 saylı Protokol layihəsi üzərində işin sürətləndirilməsinin vacibliyinə toxundular.

Tərəflər 1990-cı illərdə Türkiyə Respublikasına mühacirət etmiş və hələ də Türkiyədə hüquqi statusu olmadan yaşayan Azərbaycan Respublikası vətəndaşlarının üzləşdiyi çətinliklərin aradan qaldırılması üçün əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğuladılar.

Bundan əlavə, Tərəflər iclasla əlaqədar aşağıdakı Sazişlərin və Protokolların imzalanmasını alqışlamışlar:

- Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 10-cu iclasının Protokolu;

- Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında toxumçuluq sahəsində əməkdaşlıq haqqında Saziş;

- Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında bitkilərin mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında Saziş;

- Türkiyə Respublikası Halal Akkreditasiya Qurumu (HAA) ilə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi İnstitutu (AQTİ) arasında Əməkdaşlıq Protokolu;

- Türkiyə Respublikası Kiçik və Orta Biznesin İnkişafı və Dəstəklənməsi Agentliyi və Azərbaycan Respublikası Kiçik və Orta Müəssisələrin İnkişafı Agentliyi arasında Mikro, Kiçik və Orta Müəssisələrin maliyyə resurslarına çıxışının genişləndirilməsinə dair Niyyət Protokolu;

- Türkiyə İxracatçılar Məclisi ilə Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Agentliyi arasında ikitərəfli əməkdaşlıq Anlaşması.

Komissiyanın 11-ci İclası diplomatik kanallarla müəyyən ediləcək tarixdə Türkiyədə keçiriləcək.

Bu Protokol "04" noyabr 2022-ci il tarixində Bakı şəhərində hər biri Türk və Azərbaycan dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır.

**TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN**

**Fuat OKTAY**

**Vitse prezident**

**AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN**

**Əli ƏSƏDOV**

**Baş nazir**

**Əlavə 1**

# TÜRKİYƏ - AZƏRBAYCAN İQTİSADİ ƏMƏKDAŞLIĞINA DAİR FƏALİYYƏT PLANI

| № | Fəaliyyətin adı | Müddət | İcraçı qurumlar | |
|---|---|---|---|---|
| | | | Türkiyə tərəfindən | Azərbaycan tərəfindən |
| | **TİCARƏT VƏ İNVESTİSİYA** | | | |
| 1 | Azərbaycanın investisiya imkanlarının tanıdılması məqsədilə 2022-ci ilin 4-cü rübündə və ya 2023-cü ilin birinci yarısında Türkiyənin İstanbul və İzmir şəhərlərində "road-show" keçiriləcəkdir. | 2022-2023 | Ticarət Nazirliyi<br><br>Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu (DEİK) | İqtisadiyyat Nazirliyi<br><br>Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi-AZPROMO |
| 2 | 2023-cü il ərzində Azərbaycan-Türkiyə-Pakistan arasında işgüzar dairələr üçün onlayn üçtərəfli biznes forumun təşkili nəzərdən keçiriləcəkdir. | 2023 | Ticarət Nazirliyi<br><br>Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu<br><br>(DEİK) | İqtisadiyyat Nazirliyi<br><br>Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi-AZPROMO |

| | | | | |
|---|---|---|---|---|
| 3 | Ümumdünya Ticarət Təşkilatı Ticarətin Asanlaşdırılması Sazişi və Azərbaycanla ortaq üzvlük olan regional təşkilatlar (Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı) çərçivəsində qarşılıqlı təcrübə mübadiləsi və texniki əməkdaşlıq işlərini həyata keçirmək məqsədilə Ticarətin Asanlaşdırılması Birgə İşçi Qrupu təsis ediləcəkdir. | 2022-2023 | Ticarət Nazirliyi | İqtisadiyyat Nazirliyi |
| 4 | Birgə İqtisadi Komissiya iclasları nəticəsində imzalanan Fəaliyyət Planlarının izlənməsi və koordinasiyası məqsədilə Türk tərəfinin istifadə etdiyi TEKİZ proqramı ilə bağlı bir onlayn iclas keçiriləcək və Türk tərəfinin təcrübəsi paylaşılacaqdır. | 2022-2023 | Ticarət Nazirliyi | Xarici İşlər Nazirliyi<br><br>İqtisadiyyat Nazirliyi |
| 5 | İşğaldan azad edilən ərazilərdə prioritet hesab edilən sahələrdə Azərbaycan tərəfinin təqdim edəcəyi əməkdaşlıq təklifləri Türk iş dünyası ilə paylaşılacaqdır. | 2023 | Ticarət Nazirliyi | İqtisadiyyat Nazirliyi |
| 6 | İşğaldan azad edilən ərazilərdə həyata keçirilməsi nəzərdə tutulan və Türk şirkətləri tərəfindən həyata keçirilə biləcək layihələrin və investisiya imkanlarının tanıdılması və yerində yoxlamalar məqsədilə Türkiyədən investor şirkətlərdən ibarət nümayəndə heyəti təşkil olunacaqdır. | 2022-2023 | Ticarət Nazirliyi<br><br>Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu (DEİK) | İqtisadiyyat Nazirliyi<br><br>Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi-AZPROMO |
| 7 | Preferensial Ticarət Sazişinin əhatə dairəsinin genişləndirilməsi çərçivəsində fəaliyyət davam etdiriləcəkdir. | 2022-2023 | Ticarət Nazirliyi | İqtisadiyyat Nazirliyi<br><br>Maliyyə Nazirliyi<br>Dövlət Gömrük Komitəsi |

| | | | | |
|---|---|---|---|---|
| 8 | Ələt Azad İqtisadi Zonasının imkanları türkiyəli iş adamlarına, böyük işgüzar dairələrə, ticarət və sənaye palatalarına, potensial investorlara və iri sənaye şirkətlərə təqdim olunacaqlar, 2022-ci ilin sonuna qədər investisiya təklifləri hazırlanacaq. | 2023 | Ticarət Nazirliyi<br><br>Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu (DEİK) | Ələt Azad İqtisadi Zonası |
| **SƏNAYE VƏ TEXNOLOGİYA** | | | | |
| 9 | Sənaye mülkiyyətinin qorunması sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu və fəaliyyət planı imzalanacaq | 2022 | Sənaye və Texnologiya Nazirliyi,<br><br>Türk Patent və Əmtəə Nişanları Qurumu (TÜRKPATENT) | Əqli Mülkiyyət Agentliyi |
| 10 | Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının Milli Metrologiya İnstitutu (TUBİTAK UME) tərəfindən Azərbaycan Metrologiya İnstitutunda 27 laboratoriyanın yaradılmasına dəstək davam etdiriləcək və işlər sürətləndiriləcəkdir. | 2022-2023 | Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının Milli Metrologiya İnstitutu (TUBİTAK UME) | İqtisadiyyat Nazirliyi<br><br>Azərbaycan Metrologiya İnstitutu |
| 11 | 13 noyabr 2013-cü il tarixində imzalanmış “Elm, texnologiya, sənaye və sahibkarlıq sahələrində əməkdaşlığın gücləndirilməsinə dair Anlaşma Memorandumu” çərçivəsində 2023-cü il ərzində Birgə İşçi Qrupun yeni üzvləri müəyyən ediləcək və İşçi Qrupun iclası keçiriləcək. | 2023 | Sənaye və Texnologiya Nazirliyi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| 12 | Regional inkişaf planları ilə regional/tematik strategiyaların hazırlanması, inkişaf etdirilməsi, tətbiqi, monitorinqi və tətbiqin qiymətləndirilməsi mövzularında təcrübə mübadiləsi üçün iclaslar təşkil olunacaqdır. | 2023-2024 | Sənaye və Texnologiya Nazirliyi | İqtisadiyyat Nazirliyi |
| 13 | Azərbaycanda istehsal olunan və ixrac edilən məhsulların beynəlxalq qanunvericiliyə uyğunluğunun qiymətləndirilməsi çərçivəsində (Avropaya ixracda CE, Körfəz ölkələrinə ixracda G markalanması) müvafiq sertifikatlaşdırma xidmətinin ortaq şəkildə təşkili və Azərbaycandakı ixracatçılar üçün məlumat xarakterli görüşlər və tədbirlərin həyata keçirilməsi üzrə TSE və AZSTAND arasında ortaq əməkdaşlıq həyata keçiriləcəkdir. | 2023-2024 | Türk Standartları İnstitutu (TSE) | İqtisadiyyat Nazirliyi<br><br>Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) |
| 14 | Azərbaycanın İslam Ölkələri Standartlar və Metrologiya İnstitutunda (SMIIC) üzvlüyü fəallaşdırılacaqdır. | 2022-2023 | Türk Standartları İnstitutu (TSE) | İqtisadiyyat Nazirliyi<br><br>Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) |
| | **KƏND TƏSƏRRÜFATI, MEŞƏ VƏ QİDA TƏHLÜKƏSİZLİYİ** | | | |
| 15 | Türkiyənin kənd təsərrüfatı sahəsində çalışan mütəxəssislərinin (Aqronom və baytarların) Azərbaycanda işə götürülməsi ilə bağlı fəaliyyətlər davam etdiriləcəkdir | 2022-2023 | Kənd Təsərrüfatı və Meşə Nazirliyi<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Kənd Təsərrüfatı Nazirliyi |
| 16 | Kənd Təsərrüfatı İcra Komitəsinin növbəti iclasının keçirilməsi | 2023 | Kənd Təsərrüfatı və Meşə Nazirliyi | Kənd Təsərrüfatı Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| 17 | Müzakirələr başa çatdıqdan sonra aşağıdakı Sazişlər imzalanacaqdır:<br>"Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"<br>"Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyi ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında tədqiqat və inkişaf (Ar-Ge) sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" | 2022-2023 | Kənd Təsərrüfatı və Meşə Nazirliyi | Kənd Təsərrüfatı Nazirliyi<br><br>Qida Təhlükəsizliyi Agentliyi |
| 18 | Azərbaycanda meyvəçilik klasterinin formalaşdırılması istiqamətində Türkiyənin Mersin bölgəsinin təcrübələrini araşdırmaq məqsədilə 2023-cü ilin ikinci və ya üçüncü rübündə İqtisadi Zonaların İnkişafı Agentliyinin əməkdaşlarının həmin bölgəyə səfəri təşkil olunacaqdır. | 2023 | Kənd Təsərrüfatı və Meşə Nazirliyi | İqtisadiyyat Nazirliyi<br><br>İqtisadi Zonaların İnkişafı Agentliyi |
| 19 | Su sahəsində əməkdaşlıq təmin ediləcək. | 2022 | Kənd Təsərrüfatı və Meşə Nazirliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi<br>Azərsu<br>Su Ehtiyatları Dövlət Agentliyi |
| 20 | Meşəçilik fəaliyyətinin rəqəmsallaşdırılması və Meşə İnformasiya Sisteminin qurulmasında Türkiyə modelinin tətbiqi istiqamətində əməkdaşlıq ediləcək. | 2022-2023 | Kənd Təsərrüfatı və Meşə Nazirliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 21 | Təhlükəsizlik baxımından girilməsi mümkün olmayan meşə sahələrində Ekosistem əsaslı Funksional Meşə Quruluşu işlərinin aparılması. Bu sahədə yüksək ayırdetmə imkanlı (0,5 m görüntü imkanı) Göktürk peyk təsvirlərindən istifadə ediləcək. | 2022-2023 | Kənd Təsərrüfatı və Meşə Nazirliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **ENERGETİKA VƏ MƏDƏNÇİLİK** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **22** | İki ölkənin dövlət və özəl şirkətlərinin, xüsusən də "Türk Petrolları", BOTAŞ və SOCAR-ın mövcud və yeni layihələrdə, Azərbaycan, Türkiyə və üçüncü ölkələrdə əməkdaşlıq imkanları araşdırılacaqdır.<br><br>Tərəflər aralarındakı mövcud olan Təbii Qazın Alqı-Satqısı və Nəqli müqavilələri çərçivəsində əməkdaşlığın daha da yaxşılaşdırılmasını dəstəkləyəcəklər. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi | Energetika Nazirliyi SOCAR, Azərenerji ASC, Azərişıq ASC |
| **23** | Türkiyə tərəfi TEDAŞ vasitəsilə Azərbaycanın inteqrasiya olunmuş paylayıcı şəbəkəsinin planlaşdırılması, enerji infrastrukturunun yaxşılaşdırılması və genişləndirilməsi və bu işlər çərçivəsində lazımi hazırlıqlar da daxil olmaqla müxtəlif məsələlər üzrə məsləhət xidmətləri göstərə biləcək və Azərbaycan tərəfi elektrik sahəsində ehtiyac duyduğu avadanlıqları bazar şərtlərinə uyğun olaraq Türk şirkətlərindən alınmasını təşviq edəcəkdir. | 2022-2023 | TEDAŞ | Azərişıq ASC ,<br><br>Azərenerji ASC |
| **24** | Türkiyənin dövlət şirkətlərinin Azərbaycandakı mövcud və potensial investisiyaları ilə neft və təbii qaz yataqlarında yeni tərəfdaşlıq təşəbbüsləri Azərbaycan tərəfindən dəstəklənəcəkdir. | 2022-2023 | TPAO<br>BOTAŞ | SOCAR |
| **25** | Yaşıl Enerji Konsepsiyasının həyata keçirilməsində əməkdaşlıq ediləcəkdir. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi | Energetika Nazirliyi |
| **26** | III. Türkiyə-Azərbaycan Enerji Forumu keçiriləcəkdir. | 2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi | Energetika Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| 27 | Tərəflər aşağıdakı məsələlərlə bağlı müxtəlif formalarda (onlayn və ya üz-üzə) aparılacaq danışıqlar yolu ilə əməkdaşlığı davam etdirəcəklər:<br>- Azərbaycandan Türkiyəyə və Türkiyə üzərindən Avropaya təbii qaz nəqli imkanlarının artırılması;<br>- Azərbaycandan Türkiyəyə mövcud nəql vasitələri ilə təbii qaz və neft nəqlinin artırılması;<br>- Azərbaycan üzərindən Türkiyə və Avropaya tədarük oluna biləcək alternativ təbii qaz mənbələri ilə bağlı araşdırmaların aparılması;<br>- Azərbaycanın dəniz ərazisində SOCAR-ın tərəfdaşlığı ilə həyata keçirilə biləcək neft və təbii qaz layihələri üzrə əməkdaşlığın inkişaf etdirilməsi. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi,<br><br>BOTAŞ,TPAO | Energetika Nazirliyi,<br><br>SOCAR |
| 28 | Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında energetika sahəsində hökumətlərarası bir sənəd hazırlanacaqdır. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi | Energetika Nazirliyi |
| 29 | Azərbaycan və Türkiyə arasında elektrik enerjisinin ötürülməsi üzrə "Azərbaycan-Türkiyə Elektrik Şəbəkələrinin Birləşdirilməsi Layihəsi" üzrə İşçi Qrupun iclasları davam etdiriləcək və Tədbirlər Planı hazırlanacaqdır. | 2022-2023 | TEİAŞ | Azərenerji ASC |
| 30 | Azərbaycanın ötürücü sisteminin "ENTSO-E"-ə üzvlük prosesinin başladılması və ölkələr arasında sinxron iştirakın təmin edilməsi üçün Türkiyə tərəfi lazımi texniki dəstəyi verəcəkdir. | 2022-2023 | TEİAŞ | Azərenerji ASC |
| 31 | Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında elektrik enerjisi ticarəti sahəsində əməkdaşlıq həyata keçiriləcəkdir. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi<br>TEİAŞ | Energetika Nazirliyi<br>Azərenerji ASC,<br>Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti |

| | | | | |
|---|---|---|---|---|
| **32** | Iğdır-Naxçıvan təbii qaz kəməri üzrə işlər sürətləndiriləcəkdir. | 2022-2023 | BOTAŞ | SOCAR |
| **33** | Naxçıvan Muxtar Respublikasından Türkiyə Respublikasına elektrik enerjisinin ixracına dair aparılan araşdırmalar əsasında iki tərəf arasında Əməliyyat Sazişi imzalanacaqdır. | 2022 -2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi<br>TEİAŞ | Azərenerji ASC<br>Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti |
| **34** | Təkmilləşdirilmiş Şəffaflıq Mexanizmi (Paris Sazişi, m.13) üzrə Türkiyədə hesabatlılığın yeni formatlarının tətbiqi, MRV (ölçmə, hesabatlılıq və yoxlama) sistemi üzrə qanunvericilik və institusional səviyyədə həyata keçirilmiş islahatlar barədə informasiyanın əldə edilməsi məqsədilə texniki heyətlərin səfərləri, təlim və seminarlar təşkil ediləcək | 2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **35** | Azərbaycanın təbii sərvətlərinin “Təbii Sərvətlər İnventarının” yaradılması məqsədilə birgə tədqiqatlar aparılacaqdır. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi<br><br>MTA Baş İdarəsi (Mədən Tədqiqi və Axtarış (MTA) Baş idarəsi) | Ekologiya və Təbii Sərvətlər Nazirliyi<br>Milli Geoloji Kəşfiyyat Agentliyi,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi,<br>“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti |

| | | | | |
|---|---|---|---|---|
| 36 | Filiz, qeyri filiz, sənaye və yanar faydalı qazıntı sahələrinin öyrənilməsi və istismarı qaydalarının hazırlanması üzrə birgə tədqiqatlar aparılacaq. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi<br><br>MTA Baş İdarəsi (Mədən Tədqiqi və Axtarış (MTA) Baş idarəsi) | Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Geoloji Kəşfiyyat Agentliyi,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi,<br>"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti |
| 37 | Mədənçıxarma sahəsində bilik və təcrübə mübadiləsini təmin etmək məqsədilə ekspert mübadiləsi və təlim proqramı təşkil olunacaq. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi<br><br>MTA Baş İdarəsi (Mədən Tədqiqi və Axtarış (MTA) Baş idarəsi) | Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Geoloji Kəşfiyyat Agentliyi,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi<br>"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti |

| | | | | |
|---|---|---|---|---|
| 38 | Faydalı qazıntıların kəşfiyyatı ilə bağlı Birgə Müəssisənin yaradılmasının zəruriliyi araşdırılacaqdır. | 2022-2023 | Energetika və Təbii Sərvətlər Nazirliyi<br><br>MTA Baş İdarəsi (Mədən Tədqiqi və Axtarış (MTA) Baş idarəsi) | Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Geoloji Kəşfiyyat Agentliyi,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi,<br>"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti |
| **ƏTRAF MÜHİT VƏ ŞƏHƏRSALMA** | | | | |
| 39 | Türkiyədə tətbiq olunan Dayanıqlı Binalar üçün sertifikatlaşdırma sistemlərinin təbliğ edilməsi istiqamətində görüşlər təşkil olunacaqdır. | 2023 | Ekologiya, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Energetika Nazirliyi |
| **HUMANİTAR MƏSƏLƏLƏR (TURİZM, SƏHİYYƏ, TƏHSİL, GƏNCLƏR VƏ İDMAN, MƏDƏNİYYƏT, ƏMƏK VƏ SOSİAL, FÖVQƏLADƏ HALLAR)** | | | | |
| 40 | "Bir millət, iki dövlət" şüarını xarekterizə edən münasib abidənin hazırlanması məqsədilə "Türkiyə Azərbaycan Abidə və Abadlaşdırma Layihəsi" həyata keçiriləcəkdir. | 2023 | Mədəniyyət və Turizm Nazirliyi | Xarici İşlər Nazirliyi |
| 41 | Türkiyənin Rəngləri və Simfoniya ilə Neşet Ertaş Türküləri adlı özəl layihələr səhnələşdiriləcəkdir. | 2022-2023 | Mədəniyyət və Turizm Nazirliyi | Mədəniyyət Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| 42 | Bakının Mərdəkan qəsəbəsində yerləşən Böyük Mərdəkan Qalası və Tuba Şah Məscidinin bərpası üçün imzalanan Niyyət Məktubu çərçivəsində layihələndirmə işləri davam etdiriləcəkdir. | 2022-2023 | Mədəniyyət və Turizm Nazirliyi Türk Əmədaşlıq və Əlaqələndirmə Agentliyi (TİKA) | Mədəniyyət Nazirliyi |
| 43 | Gəncə Dövlət Universitetinin yeni təhsil kampusu daxilində olan yataqxana binasının təmir və təchizatının TİKA tərəfindən həyata keçirilərək, şəhər xaricindən gələn qız tələbələrin yataqxanada yerləşməsi ehtiyacının təmin edilməsi məqsədilə xidmətə veriləcək layihələndirmə işləri yekunlaşdırılacaqdır. | 2022-2023 | Mədəniyyət və Turizm Nazirliyi Türk Əmədaşlıq və Əlaqələndirmə Agentliyi (TİKA) | Elm və Təhsil Nazirliyi |
| 44 | Turizm üzrə Birgə Komissiyanın ikinci dövri iclası keçiriləcəkdir. | 2023 | Mədəniyyət və Turizm Nazirliyi | Dövlət Turizm Agentliyi |
| 45 | Mədəniyyət üzrə Qarışıq Komissiyanın ikinci dövri iclası keçiriləcəkdir. | 2022 | Mədəniyyət və Turizm Nazirliyi | Mədəniyyət Nazirliyi |
| 46 | Azərbaycan Respublikasının peşə və texniki sahələr üzrə verilən təhsilin Türkiyə Respublikası Milli Təhsil Nazirliyi tərəfindən tam orta təhsilin bitməsinə dair sənəd kimi tanınmasına diplomatik kanallar vasitəsilə daxil olacaq müraciət əsasında baxılacaqdır və nəticələri barədə Azərbaycan tərəfinə məlumat veriləcəkdir. | 2022-2023 | Milli Təhsil Nazirliyi | Elm və Təhsil Nazirliyi |
| 47 | Azərbaycan Respublikası tərəfindən yaradılacaq ümumi təhsil müəssisəsi üçün Türkiyə tərəfi Türkiyə Respublikasının İstanbul şəhərində torpaq sahəsinin ayrılması imkanlarını araşdıracaq və bu barədə Azərbaycan tərəfinə məlumat verəcəkdir. | 2022-2023 | Milli Təhsil Nazirliyi | Elm və Təhsil Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| 48 | Bakıda və Qəbələdə açılması nəzərdə tutulan peşə təhsili müəssisələrinin tədris proqramları hazırlanacaq.<br><br>Adıçəkilən peşə təhsili müəssisələrinin emalatxanalarının tikintisi və təchizatı ilə bağlı məlumat və təcrübə mübadiləsi aparılacaq.<br><br>Sözügedən peşə təhsili müəssisələrinin binaları və texniki ləvazimatları hazır olandan sonra bu müəssisələrdə tədris üçün Türkiyə tərəfindən müəllimlər göndəriləcək. | 2022-2023 | Milli Təhsil Nazirliyi | Elm və Təhsil Nazirliyi |
| 49 | Türkiyə Respublikası Ali Təhsil Şurasının rəsmi internet saytında “YÖK Lisans Atlası” adı altında qeyd olunan Azərbaycan Respublikası ali təhsil müəssisələrinin sayının artırılması istiqamətində YÖK-ün qiymətləndirilməsi davam etdiriləcək. | 2022-2023 | Ali Təhsil Şurası (YÖK) | Elm və Təhsil Nazirliyi |
| 50 | Bakıda Azərbaycan-Türkiyə Universitetinin yaradılması ilə bağlı saziş ən qısa zamanda tamamlanacaq. | 2022-2023 | Ali Təhsil Şurası (YÖK) | Elm və Təhsil Nazirliyi |
| 51 | Bakı Türk Təhsil Müəssisələrinin məktəb binası və ya torpaq ehtiyaclarını ödəmək üçün Azərbaycan tərəfi mümkün imkanları araşdıracaq və Türkiyə tərəfini xəbərdar edəcək. | 2022-2023 | Milli Təhsil Nazirliyi | Elm və Təhsil Nazirliyi |
| 52 | Təhsil qaynaqları siyasətinin tətbiq olunması sahəsində təcrübə mübadiləsi aparılacaqdır;<br><br>Qarşılıqlı olaraq hər iki ölkənin tarixi həqiqətlərini əks etdirən məlumatların əlaqədar dərsliklərdə düzgün şəkildə əks olunması və geniş şəkildə yayılması təmin ediləcəkdir. | 2022-2023 | Milli Təhsil Nazirliyi | Elm və Təhsil Nazirliyi |
| 53 | Bakı Türkiyə Təhsil Müəssisələri haqqında Nizamnamə nazirliklərin qarşılıqlı razılığı ilə qüvvəyə minəcək. | 2022-2023 | Milli Təhsil Nazirliyi | Elm və Təhsil Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| 54 | Türkiyə-Azərbaycan Peşə Təhsili Müəssisəsinin Nizamnaməsi tamamlanacaq və qarşılıqlı razılaşma əsasında imzalanacaq. | 2022-2023 | Milli Təhsil Nazirliyi | Elm və Təhsil Nazirliyi |
| 55 | Türkiyə və Azərbaycanın səhiyyə bazarında payının artırılmasını nəzərdə tutan Birgə Səhiyyə Biznes Forumlarının keçirilməsi üçün texniki səfərlər təşkil ediləcək və hər iki tərəf üçün uyğun vaxtlarda Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumları keçiriləcəkdir. | 2022-2023 | Səhiyyə Nazirliyi | Səhiyyə Nazirliyi |
| 56 | Türkiyə Respublikasının milli imkanları ilə istehsal edilən TURKOVAC peyvəndinin 3-cü mərhələ klinik sınaqlarının həyata keçirilməsi ilə yanaşı, bu kimi elmi işlərin birlikdə aparılması davam etdiriləcəkdir. | 2022-2023 | Səhiyyə Nazirliyi | Səhiyyə Nazirliyi |
| 57 | 2022-2023-cü illər üzrə səhiyyə sahəsində əməkdaşlıq üzrə Yol Xəritəsi icra ediləcəkdir. | 2022-2023 | Səhiyyə Nazirliyi | Səhiyyə Nazirliyi |
| 58 | Türkiyədə həyata keçirilən DENEYAP layihəsi çərçivəsində Azərbaycan tərəfi ilə təcrübə mübadiləsi aparılacaq. | 2022-2023 | Gənclər və İdman Nazirliyi | Gənclər və İdman Nazirliyi |
| 59 | "Qardaş yardımı" adlı layihə çərçivəsində iki ölkənin mədəni-tarixi dəyərlərinin təbliği və qarşılıqlı əlaqələrin gücləndirilməsi məqsədilə Azərbaycandan 20 gənc Türkiyəyə, Türkiyədən isə 20 gənc Azərbaycana göndəriləcək. | 2023 | Gənclər və İdman Nazirliyi | Gənclər və İdman Nazirliyi |
| 60 | İstanbulda Türkiyə-Azərbaycan Gənclər Forumu keçiriləcək | 2023 | Gənclər və İdman Nazirliyi | Gənclər və İdman Nazirliyi |
| 61 | Türkiyə və Azərbaycanın Gənclər və İdman nazirlikləri arasında İdman Sahəsində Ekspert Mübadilə Proqramı həyata keçiriləcək. | 2022-2023 | Gənclər və idman Nazirliyi | Gənclər və İdman Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| **62** | Türkiyə-Azərbaycan gənclər və idman sahələrində İşçi Qrupunun 2-ci iclası Türkiyədə keçiriləcək. | 2022-2023 | Gənclər və İdman Nazirliyi | Gənclər və İdman Nazirliyi |
| **63** | "25 oktyabr 2011-ci il tarixində Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində imzalanmış Əməkdaşlıq Protokolunun müvafiq maddələrindən irəli gələn məsələlərlə bağlı 2023-2025-ci illər üzrə Fəaliyyət Planı" imzalanacaqdır. | 2023 | Ailə və Sosial Xidmətlər Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **64** | Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında Birgə Daimi Komissiyanın 10-cu iclasında qəbul edilən 2022-2023-cü illər üzrə Tədbirlər Planı çərçivəsindəki fəaliyyətlər yekunlaşdırılacaqdır. | 2022-2023 | Əmək və Sosial Müdafiə Nazirliyi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **65** | Türk və Azərbaycan diaporlarının Birgə Fəaliyyət Strategiyasının hazırlanması üzrə İşçi Qrup yaradılacaqdır. | 2023-2025 | Xaricdə Yaşayan Türklər və Əqrəba Topluluqları Başqanlığı | Diasporla iş üzrə Dövlət Komitəsi |
| **66** | Zəlzələlərin monitorinq sistemləri üzrə Azərbaycan ilə əməkdaşlıq inkişaf etdiriləcəkdir. (Azərbaycanda dərin quyu müşahidə stansiyasının quraşdırılması və texnoji nəaliyyətlər əldə edilməsi təmin ediləcəkdir) | 2022-2023 | Fəlakət və Fövqəladə Halların İdarə edilməsi Başqanlığı (AFAD) | Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi |
| **67** | Fövqəladə Hallar Nazirliyinin İNSARAG Şəhər Axtarış-Xilasetmə Dəstəsinin Təsnifatı (İEC) çərçivəsində həyata keçirilən hazırlıq işləri AFAD tərəfindən dəstəklənəcək, zəruri hesab olunan mövzularda birgə təlim, təcrübə və ekspert mübadiləsi həyata keçiriləcək. | 2022-2023 | AFAD | Fövqəladə Hallar Nazirliyi |
| **68** | Milli və Yerli Fəlakət Risklərinin Azaldılması Planlarının tərtib edilməsi/hazırlanması üzrə Azərbaycan tərəfi ilə texniki əməkdaşlıq həyata keçiriləcək. | 2022-2023 | AFAD | Fövqəladə Hallar Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| **MALİYYƏ** | | | | |
| **69** | ARMB və TRMB arasında milli valyutalarda ticarətin dəstəklənməsi üçün swap aləti də daxil olmaqla, alternativ maliyyə alətləri araşdırılacaqdır. | 2022-2023 | Türkiyə Respublikasının Mərkəzi Bankı (TRMB) | Azərbaycan Respublikasının Mərkəzi Bankı (ARMB) |
| **70** | Türkiyə və Azərbaycan kapital bazarlarında ticarət olunan qiymətli kağızların türk və azərbaycanlı investorlar üçün əlçatanlığının təmin edilməsi məqsədilə qarşılıqlı nominal saxlayıcı hesablarının açılması üzrə zəruri işlər tamamlanacaqdır. | 2022-2023 | Türkiyə Respublikasının Prezidenti yanında Maliyyə Ofisi | Azərbaycan Respublikasının Mərkəzi Bankı |
| **71** | Azərbaycan şirkətlərinin İstanbul Fond Birjasında və türk şirkətlərinin Bakı Fond Birjasında listinqi üzrə zəruri infrastruktur işləri 2023-cü ilin sonunadək tamamlanacaqdır. | 2022-2023 | Türkiyə Respublikasının Prezidenti yanında Maliyyə Ofisi | Azərbaycan Respublikasının Mərkəzi Bankı |
| **72** | "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında gəlirlərin ikiqat vergiyə cəlb edilməsinin qarşısının alınması haqqında Saziş" üzrə işlər davam etdiriləcəkdir. | 2022-2023 | Xəzinə və Maliyyə Nazirliyi | Maliyyə Nazirliyi<br><br>İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti |
| **MİQRASİYA VƏ DİASPORA** | | | | |
| **73** | 1990-2000-ci illər arasında Türkiyə Respublikasına mühacirət etmiş və hal-hazırda Türkiyə Respublikasında hüquqi statusu olmadan yaşayan, bu səbəbdən heç bir sosyal və tibbi sığorta, səhiyyə, təhsil, ədliyyə, ailə vəziyyəti barədə məlumatın dəyişdirilməsi kimi hüquqlardan faydalana bilməyən Azərbaycanlıların Türkiyədəki statuslarının rəsmiləşdirilməsi, onların sosyal və hüquqi problemlərinin həll edilməsi istiqamətində birgə fəaliyyət davam etdiriləcəkdir. | 2022-2023 | Daxili İşlər Nazirliyi,<br><br>Miqrasiya İdarəçiliyi üzrə Baş Direktorluğu | Xarici İşlər Nazirliyi,<br><br>Diasporla iş üzrə Dövlət Komitəsi |

| | | | | |
|---|---|---|---|---|
| 74 | Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında miqrasiya sahəsində razılışdırılmaqda olan və ya imzalanması nəzərdə tutulan müqavilələrlə bağlı görülən işlər davam etdiriləcəkdir. | 2022-2023 | Miqrasiya İdarəçiliyi üzrə Baş Direktorluq, Xarici İşlər Nazirliyi | Dövlət Miqrasiya Xidməti |
| 75 | Türkiyədə yaşayan Azərbaycan Respublikası vətəndaşları və Azərbaycanda yaşayan Türkiyə Respublikası vətəndaşlarının miqrasiya sahəsində qarşılaşdıqları problemlərin həlli istiqamətində birgə tədbirlər sürətləndiriləcəkdir | 2022-2023 | Miqrasiya İdarəçiliyi üzrə Baş Direktorluq, Xarici İşlər Nazirliyi | Dövlət Miqrasiya Xidməti |
| **NƏQLİYYAT VƏ RABİTƏ** | | | | |
| 76 | İki ölkə arasında ticarətin sürətləndirilməsi üçün daşıma xərclərinin azaldılması, hər iki ölkənin logistik potensialının gücləndirilməsi və tranzit daşımaların inkişafı istiqamətində əməkdaşlıq ediləcək. | 2022-2023 | Nəqliyyat və İnfrastuktur Nazirliyi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 77 | Hava əlaqəsi haqqında Sazişin yenilənməsinin zəruriliyini qeyd edərək hava əlaqəsi haqqında yeni Saziş layihəsinin mətni üzrə müzakirələrə başlanılması barədə razılığa gəlinmişdir. Danışıqlarda tək təyinat prinsipinin ləğvi hər iki tərəfin maraqlarına uyğun şəkildə müzakirə ediləcəkdir. | 2022-2023 | Nəqliyyat və İnfrastuktur Nazirliyi, Mülki Aviasiya Baş İdarəsi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 78 | Telekommunikasiya infrastukturunun gücləndirilməsi məqsədilə özəl sektorlar arasında regional əməkdaşlığın genişləndirilməsi təşviq ediləcəkdir. | 2023-2024 | Nəqliyyat və İnfrastuktur Nazirliyi, İnformasiya və Kommunikasiya Texnologiyaları Qurumu, “Türk Telekom” Anonim Şirkəti | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| 79 | BTQ xəttində sərnişin daşımalarına başlandıqdan sonra yerli və xarici turistlərin Bakı-Tbilisi-Qars marşrutundan istifadə etməklə iki ölkə arasında səyahətlər təşviq ediləcək və bu məqsədlə keçid prosedurlarını asanlaşdırmaq üçün turizm şirkətlərinə lazımi dəstək və təlimat veriləcək. | 2022-2023 | Nəqliyyat və İnfrastuktur Nazirliyi, Türkiyə Respublikası Dəmir Yolları (TCDD), "TCDD Taşımacılık" Anonim Şirkəti | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "Azərbaycan Dəmir Yolları" QSC, Dövlət Turizm Agentliyi |
| 80 | Nəqliyyat və rabitə üzrə Türkiyə-Azərbaycan işçi qrupunun 2022-ci ildə keçirilmiş birinci toplantısında qəbul edilmiş qərarların ica vəziyyətinə baxılması üçün iclas keçiriləcək. | 2022-2023 | Nəqliyyat və İnfrastuktur Nazirliyi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 81 | Avtomobil nəqliyyatı ilə daşımalar haqqında Sazişin yenilənməsinin zəruriliyini qeyd edərək avtomobil nəqliyyatı ilə daşımalar haqqında yeni Saziş layihəsinin mətni üzrə müzakirələrə başlanılması barədə razılığa gəlinmişdir. Danışıqlarda tranzit daşımaların liberallaşdırılması və keçid xərclərinin qarşılıqlı ləğvi hər iki tərəfin maraqlarına uyğun şəkildə müzakirə ediləcəkdir. | 2022-2023 | Nəqliyyat və İnfrastuktur Nazirliyi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 82 | "Azərkosmos" ilə "Türksat" Anonim Şirkəti arasında peyk televiziya yayımı, peyk rabitəsi (Ka və Ku diapazonları üzərində VSAT xidmətləri və s.) və peyk proqramları üzrə müştərək fəaliyyət sahələrinin müəyyən edilməsi və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə qarşılıqlı iş təşviq ediləcək və bu çərçivədə birgə fəaliyyətlər təşkil olunacaq. | 2022-2023 | Türksat" Anonim Şirkəti | " "Azərkosmos", Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 83 | Tərəflər avtomobil nəqliyyatı ilə daşımalar üçün icazə blanklarının elektron mübadiləsi məsələsinə baxacaqlar. Bu çərçivədə, Türkiyə tərəfi mövzu ilə bağlı ətraflı məlumat verəcəkdir. | 2022-2023 | Nəqliyyat və İnfrastuktur Nazirliyi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi<br><br>Dövlət Gömrük Komitəsi |
| **İNSAN RESURSLARI** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **84** | Azərbaycan universitetlərinin karyera mərkəzlərinin (KM) gücləndirilməsi məqsədilə 5 pilot universitetin KM əməkdaşlarına təlimlər keçiriləcək və Prezident İdarəsi İnsan Resursları Ofisi tərəfindən hazırlanmış proqram təminatı pilot proqram çərçivəsində istifadəyə veriləcək. | 2022-2023 | Prezident İdarəsi İnsan Resursları Ofisi | Elm və Təhsil Nazirliyi |
| **RƏQƏMSAL TRANSFORMASİYA** | | | | |
| **85** | Türkiyə-Azərbaycan elektron hökumət sistemləri arasında məlumat mübadiləsi üçün pilot qurumlar müəyyən ediləcək və elektron hökumət sistemləri arasında məlumat mübadiləsinə dair müqavilənin hazırlanması üçün danışıqlara başlanılacaqdır. | 2022-2023 | Rəqəmsal Transformasiya Ofisi | ASAN Xidmət |
| **86** | Azərbaycanda Milli Süni İntellekt Strategiyasının hazırlanması sahəsində məlumat və təcrübə mübadiləsi məqsədilə danışıqlar aparılacaqdır. | 2023 | Rəqəmsal Transformasiya Ofisi | İqtisadiyyat Nazirliyi<br><br>"Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" |

EK-2

## TÜRKİYƏ TƏRƏFİ NÜMAYƏNDƏ HEYƏTİNİN SİYAHISI

| | | |
|---|---|---|
| 1. | Fuat OKTAY | Türkiyə Respublikasının Vitse-prezidenti, KEK Həmsədri |
| 2. | Sezai UÇARMAK | Nazir müavini Ticarət Nazirliyi |
| 3. | Abdullah TANCAN | Nazir müavini Energetika və Təbii Sərvətlər Nazirliyi |
| 4. | Sadri ŞENSOY | Nazir müavini Təhsil Nazirliyi |
| 5. | Çetin Ali DÖNMEZ | Nazir müavini Sənaye və Texnologiya Nazirliyi |
| 6. | İbrahim YUMAKLI | Nazir müavini Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyi |
| 7. | Selim DURSUN | Nazir müavini Nəqliyyat və İnfrastruktur Nazirliyi |
| 8. | Cahit BAĞCI | Türkiyə Respublikasının Bakıdakı səfiri |
| 9. | Tahsin Timur SÖYLEMEZ | Səfir, Baş direktor müavini vəzifəsini icra edən Xarici İşlər Nazirliyi |
| 10. | Ali Taha KOÇ | Prezident Administrasiyasının Rəqəmsal Transformasiya Ofisinin rəhbəri |
| 11. | Göksel AŞAN | Prezident Administrasiyasının Maliyyə Ofisinin rəhbəri |
| 12. | Ahmet BEKDEMİR | Katibliyin rəisi Vitse-prezidentlik |
| 13. | Halil AFŞARATA | Vitse-prezidentin baş köməkçisi |
| 14. | Ali GENÇ | Baş köməkçi / Mətbuat katibi Vitse-prezidentlik |
| 15. | Ali Süha BACANAKGİL | Köməkçi / Mətbuat katibi Vitse-prezidentlik |
| 16. | Sinem SİNANGİL | Vitse-prezidentlik |
| 17. | İlker TÜRKÖZ | Köməkçi/Tekst Yazıcısı Vitse-prezidentlik |
| 18. | Taha Kürşad SEZEN | Katibliyin rəis müavini Vitse-prezidentlik |
| 19. | Eren KÖSE | Katibliyin rəis müavini Vitse-prezidentlik |
| 20. | Özlem Sıla TALAY | İqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyadan məsul Vitse-prezidentlik |

EK-2

| | | |
|---|---|---|
| 21. | Haydar ADALI | Protokol xidməti rəisinin müavini<br>Vitse-prezidentlik |
| 22. | Nail OLPAK | DEİK Rəhbəri |
| 23. | Hasan Basri KURT | KOSGEB Rəhbəri |
| 24. | Cemil BAŞPINAR | Türk Patent ve Marka Kurumu Rəhbəri |
| 25. | Burhan ÖZCAN | Baş Direktor<br>BOTAŞ |
| 26. | Vedat YANIK | Baş Direktor<br>MTA |
| 27. | Melih Han BİLGİN | Baş Direktor<br>TPAO |
| 28. | Ahmet GÜLEÇ | TİM Rəhbəri vəzifəsini icra edən |
| 29. | Haldun GÖKTAŞ | YÖK Rəhbəri vəzifəsini icra edən |
| 30. | Atilla BASTIRMACI | Baş Direktorun müavini<br>Ticaret Bakanlığı |
| 31. | Enes OLGUN | Baş Direktorun müavini<br>TCMB |
| 32. | Haşim AĞRILI | Baş Direktorun müavini<br>MTA |
| 33. | Aziz AKSU | Baş Direktorun müavini vəzifəsini icra edən<br>Nəqliyyat və İnfrastruktur Nazirliyi |
| 34. | Abdulhadi TURUS | Rəhbərin müavini<br>YTB |
| 35. | Gözde ŞAHİN | Aİ və Xarici Əlaqələr Departamentinin rəis müavini vəzifəsini icra edən<br>Mədəniyyət və Turizm Nazirliyi |
| 36. | Safa USLU | Daire Başkanı<br>Cumhurbaşkanlığı Dijital Dönüşüm Ofisi |
| 37. | Abdullah Emre AKEL | Departament rəisi<br>Prezident Administrasiyasının Maliyyə Ofisi |
| 38. | Ece KIZILKAYA | Departament rəisi<br>Təhsil Nazirliyi |
| 39. | Hasan BOZ | Departament rəisi<br>Nəqliyyat və İnfrastruktur Nazirliyi |
| 40. | Mustafa EFE | Departament rəisi<br>YÖK |
| 41. | Mehmet IŞIK | Nazir köməkçisi<br>Sənaye və Texnologiya Nazirliyi |

EK-2

| | | |
|---|---|---|
| 42. | Recep YILDIRIM | Nazir müavini köməkçisi<br>Nəqliyyat və İnfrastruktur Nazirliyi |
| 43. | İlhan POLAT | Katibliyin rəisi<br>Ticarət Nazirliyi |
| 44. | Selvi KOROĞLU | Katibliyin rəisi<br>Nəqliyyat və İnfrastruktur Nazirliyi |
| 45. | Mehmet YERLİKAYA | Katibliyin rəisi<br>Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyi |
| 46. | Muhammed Feyzullah BAKAR | Katibliyin rəisi<br>KOSGEB |
| 47. | Kürşad BELDAN | Şöbə Müdürü vəzifəsini icra edən<br>Təhsil Nazirliyi |
| 48. | Burcu AVCI | Ticarət Eksperti<br>Ticarət Nazirliyi |
| 49. | Elif KANGAL | Ekspert<br>Ekologiya, Şəhərsalma və İqlim Dəyişiklikləri Nazirliyi |
| 50. | Sultan AYDOĞMUŞ | Təhsil Eksperti<br>Təhsil Nazirliyi |
| 51. | Gülperi TAŞLIYURT | Ekspert<br>Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyi |
| 52. | Okan SADİ | Ekspert<br>Sənaye və Texnologiya Nazirliyi |
| 53. | Ege Barış KANIK | Ticarət Eksperti köməkçisi<br>Ticarət Nazirliyi |
| 54. | Elif YALÇIN AKÇAM | Ekspert köməkçisi<br>YTB |
| 55. | Beste COŞKUNER | Şef<br>TİM |
| 56. | Demet KONUK | Tərcüməçi<br>Mədəniyyət və Turizm Nazirliyi |
| 57. | Doğa HAZER | Ekspert<br>DEİK |
| 58. | Burçin KAHVECİ | Ekspert<br>Türkiyə Bələdiyələr Birliyi |

EK-3

## TÜRKİYƏ TƏRƏFİ NÜMAYƏNDƏ HEYƏTİNİN SİYAHISI

| | | |
|---|---|---|
| 1. | Ali ESEDOV | Azerbaycan Cumhuriyeti Başbakanı, KEK Eşbaşkanı |
| 2. | Mikayıl CABBAROV | İqtisadiyyat Naziri |
| 3. | Rəşad Nəbiyev | Rəqəmsal İnkişaf və Nəqliyyat Naziri |
| 4. | Pərviz ŞAHBAZOV | Energetika Naziri |
| 5. | Muxtar BABAYEV | Ekologiya və Təbii Sərvətlər Naziri |
| 6. | İnam KƏRİMOV | Kənd Təsərrüfatı Naziri |
| 7. | Emin ƏMRULLAYEV | Elm və Təhsil Naziri |
| 8. | Səbuhi MƏMMƏDOV | Naxçıvan Muxtar Respublikasının Baş Naziri |
| 9. | Qoşqar TƏHMƏZLİ | Qida Təhlükəsizliyi Agentliyinin Sədri |
| 10. | Rəşad MƏMMƏDOV | Azərbaycanın Türkiyədəki Səfiri |
| 11. | Şahin BAĞIROV | Dövlət Gömrük Komitəsinin Sədri Vəzifəsini İcra Edən |
| 12. | Rövşən NƏCƏF | SOCAR-ın prezidenti |
| 13. | Zakir PAŞAYEV | Nazirlər Kabineti Aparatının Beynəlxalq Əməkdaşlıq Şöbəsinin Müdiri |
| 14. | Yusif ABDULLAYEV | AZPROMO-nun İcraçı Direktoru Vəzifəsini İcra Edən |
| 15. | Orxan MƏMMƏDOV | Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin Sədri |
| 16. | İbrahim MƏMMƏDOV | Nazirlər Kabinetinin Mətbuat Xidmətinin Rəhbəri |
| 17. | Ellada ƏLİYEVA | NK Aparatının Beynəlxalq Əməkdaşlıq Şöbəsi Müdirinin Müavini |
| 18. | Nadir İSMAYILOV | NK Aparatının Beynəlxalq Əməkdaşlıq Şöbəsinin Sektor Müdiri |
| 19. | Gülnar NİFTƏLİYEVA | NK Aparatının Beynəlxalq Əməkdaşlıq Şöbəsinin Böyük Məsləhətçisi |
| 20. | Rəşid VƏZİRLİ | NK Aparatının Beynəlxalq Əməkdaşlıq Şöbəsinin Aparıcı Məsləhətçisi |
| 21. | Orxan ZEYNALOV | İqtisadi Məsələlər Üzrə Baş Direktor, Xarici İşlər Nazirliyi |

**EK-3**

| | | |
|---|---|---|
| 22. | Müsənnif DADAŞOV | Beynəlxalq Hüquq və Müqavilələr Departamenti, 2. Katib<br>Xarici İşlər Nazirliyi |
| 23. | Elvin ƏHMƏDOV | Beynəlxalq Hüquq və Müqavilələr Departamenti, 2. Katib<br>Xarici İşlər Nazirliyi |